Mərkəzi Seçki Komissiyası Katibliyinin strukturunun və ştat vahidlərinin yenidən təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

**Q Ə R A R I**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası (bundan sonra – Mərkəzi Seçki Komissiyası) Katibliyinin strukturunun təkmilləşdirilməsi və fəaliyyətinin səmərəliliyinin daha da artırılması məqsədilə Mərkəzi Seçki Komissiyasının 2022-ci il 4 avqust tarixli 4/17 saylı Qərarı ilə "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyi haqqında Əsasnamə"yə dəyişikliklər edilib. Bununla əlaqədar Mərkəzi Seçki Komissiyası Katibliyinin mövcud strukturunun təkmilləşdirilərək yenidən təsdiq edilməsi zərurəti yaranmışdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 28.5-ci maddələrinə uyğun olaraq **q ə r a r a  a l ı r :**

1. Mərkəzi Seçki Komissiyası Katibliyinin strukturu və ştat vahidləri yenidən təsdiq edilsin (cədvəl əlavə edilir).
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Arifə Muxtarova

Katib Mikayıl Rəhimov